Martın 1-də Təhsil Nazirliyində ölkəmizin ali təhsil sisteminin Boloniya prosesinə qoşulması üzrə görülmüş işlər və mövcud problemlərin həlli yollarına dair seminar keçirilib. Seminarda çıxış edən təhsil naziri Misir Mərdanov Boloniya bəyannaməsi prinsiplərinin tətbiqi istiqamətində ali məktəblərimizdə həyata keçirilən tədbirlər, aparılan islahatlar barədə məlumat verib. Nazir müvafiq proses, onun əsasını təşkil edən kredit sisteminin mahiyyəti haqqında daha ətraflı məlumat əldə edilməsi üçün Təhsil Nazirliyinin Mərkəzi Aparatında, ali məktəblərdə bu mövzuda seminarların keçirilməsinin və mütəxəssislərin silsilə mühazirələr oxumasının məqsədəuyğunluğunu qeyd edib. Misir Mərdanov ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı Sərəncama əsasən yaradılan işçi qrupun gördüyü işlər barədə məlumat verib. Ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı layihəsi üzərində işçi qrupu tərəfindən aparılan işlərin artıq başa çatdığını diqqətə çatdıran nazir burada əksini tapan istiqamətlərlə seminar iştirakçılarını tanış edib. Nazir, həmçinin müvafiq sənədin ali məktəblərə göndəriləcəyi, alınan rəy və təkliflər əsasında yenidən işlənib təkmilləşdirildikdən sonra hökumətə təqdim olunacağını bildirib. Nazir onu da əlavə edib ki, dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində bu il ilk dəfə olaraq 5 azərbaycanlı gənc Koreyaya göndərilib.Misir Mərdanov həmin gənclərin Bakı Dövlət Universitetində təhsil aldıqlarını açıqlayıb. Sonra məruzə üçün söz Azərbaycan Dillər Universitetinin dekanı, professor Əfqan Abdullayevə verilib. Ə.Abdullayev Boloniya prosesi və onun əsasını təşkil edən kredit sisteminin mahiyyəti, çalışdığı təhsil müəssisəsində bu istiqamətdə görülən işlər, qarşıya çıxan problemlər haqqında geniş məruzə-təqdimatla çıxış edib. Eyni zamanda kredit sisteminin tələbələrə verdiyi fayda və imkanlardan, tədris proqramlarında onlara təklif olunan fənlərin bölgüsündən söz açıb, bu sistemdə tələbələrin fənn seçiminə, müstəqil işlərinə daha çox yer ayrıldığını bildirib.